*Qərbi Azərbaycanın XX əsrdə yetirdiyi ziyalılardan biri - müəllimlik peşəsinə sadiq ürəklə bağlanan, mənalı həyat yolu keçən Nazim Zeynalovdur. Muncuq-muncuq ipə-sapa düzülən müəllimin insani keyfiyyətləri barədə ürəklə söhbət açmaq olar. O, müdriklik zirvəsində dayanan ağsaqqal, pedaqoq, fədakar vətən oğlu, qeyrətli vətəndaş, xeyirxah bir insan, mənəvi dəyərlərin daşıyıcısıdır. Azərbaycan xalqının milli-mənəvi dəyər xəzinəsində ən qiymətli incidir. Müdrik şəxsiyyət kimi gəncliyində ağsaqqallıq mərtəbəsinə yüksəlmişdir.*

# Toy, büsat başlaya qədim Göyçədə...







Nazim Xasay oğlu Zeynalov 18 may 1955-ci ildə Qərbi Azərbaycanın-Basarkeçər rayonunun dağlar qoynunda yerləşən Daşkənd kəndində dünyaya göz açmışdır. Atası Xasay müəllim Göyçə mahalında istedadlı müəllim kimi tanınmış, gənclərin təlim-tərbiyəsində böyük xidmətləri olmuşdur.

Nazim Zeynalovun gənclik illəri Tərsədə, Abbasbəy yaylağında, Çoban bulağında və atlas geyimli dağların sinəsində keçmiş, həmişə buradakı qədim abidələrə sidq ürəklə baxmış, qürur hisssi keçirmişdir ki, Göyçə gölünün hər qarışında onun ayaq izləri var. Daşkənd obaları Aşıq Nəcəf, Məmmədhüseyn, Aşıq Hacı, el şairi Alqayıt Xəlilov kimi dahi saz, söz ustadları yetişdirib.

Ensiklopedik biliyə malik olan Nazim Zeynalov doğma kəndlərində orta məktəbi müvəffəq qiymətlərlə bitirdikdən sonra Azərbaycan Pedaqoji Universitetinin tarix fakültəsinə daxil olub. Ali məktəbdə təhsil aldığı tarixi mükəmməl öyrənib elmi biliklərə yiyələnib.

O, dünyaya tarixin gözüylə baxırdı. Bilirdi ki, dünyanın labirint yollarında zamanın səhvlərini, həyatın əyər-əysiyini, dövrün yanlışlığını qoca tarix saf-çürük edib, həyat həqiqətini haqqın tərəzisinə qoyub.

Nazim Zeynalov həm də qeyrətli türk oğlu kimi bu "gəlimli-gedimli, bir ucu ölümlü" dünyada türkün zaman-zaman keçdiyi tarixi yolun hər döngə-dönəmini də beş barmağı kimi tanıyırdı. Və özü də çox yaxşı bilirdi ki, dünyanın qədim və orta əsrlər dövründə zamanın mizan tərəzisi, bir də kəsərli qılıncı türkün əlində olub. Bəşərə öz mədəniyyətini, öz hikmətini, qüdrətini və hökmünü göstərib. Dünya yenə də türkün ləyaqət və şərafət işığından nur alacaq.

Nazim Zeynalov 1976-cı ildə ali məktəbi bitirdikdən sonra təyinatla Xaçmaz rayonunun Zeykurova kənd orta məktəbində pedaqoji fəaliyyətə başlayıb. Bu ucqar kənddə işlədiyi 3 il ərzində gənc müəllim sevib, seçdiyi peşəsində tükənməz enerji ilə çalışıb, iş prosesində mütərəqqi metodların tətbiqinə geniş yer verib, təlim-tərbiyənin səviyyəsinin yüksəldilməsi üçün valideynlərlə həmişə sıx əlaqə saxlayıb. Şübhəsiz ki, bu da səmərəli nəticəsini verib. Məktəbdə işlədiyi müddətdə Nazim müəllim ixtisasartırma kurslarında da iştirak edib.

O, 1979-cu ildə qəlbinin hökmü ilə qədim Oğuz yurduna, Göyçə mahalına qayıdıb. On bir il Daşkənd orta məktəbində pedaqoji fəaliyyətini davam etdirib. Çalışıb ki, şagirdlər arasında tarix fənninə maraq yüksək olsun. Bu ixtisası seçənlər həmişə yüksək qiymətlərlə müxtəlif ali məktəblərə daxil olsunlar.

1988-ci ilin fevralında acı bir xəbər məktəbin pedaqoji kollektivi tərəfindən narazılıqla qarşılandı. Faşist xislətli erməni vandalları uydurma Qarabağ problemini ortaya ataraq, İrəvanın küçələrinə çıxıb mitinqlərə başladılar. Mitinqlərdə Zori Balayan, Silva Kaputikyan, Sero Xanzadyan və başqaları türklərin əleyhinə düşmənçilik toxumu səpir, separatçıları qızışdırır, Moskvadan kömək istəyirdilər. Şübhəsiz ki, bu şovinist addımlar Qərbi azərbaycanlıları çox narahat edirdi. Nəhayət, ermənilər 1988-ci ildə xəyanət torunu işə salaraq Mixail Qorbaçovu ələ alıb, XX əsrin sonunda azərbaycanlıları ata-baba yurdlarından zülm və işgəncə ilə qovdular. Son deportasiyada Göyçənin bütün müəllimləri kimi bacarıqlı və təcrübəli pedaqoq Nazim Zeynalov da deportasiyaya məruz qaldı. Ailəlikcə qarlı dağlar aşdılar, Bakı şəhərində məskunlaşdılar. Bu çətin məqamda Nazim müəllim ermənilərin vəhşi hərəkətləri ilə bağlı ayrı-ayrı televiziya kanallarında müsahibələr verdi, bildirdi ki, son 2 əsrdə erməni separatçıları azərbaycanlılara qarşı analoqu olmayan qırğınlar törətmiş, xüsusilə çar Rusiyası dövründə daşnaklar daha da azğınlaşmışdılar.

N.Zeynalov doğma torpaqlarından deportasiya olunduqdan sonra bir neçə il Bakının Xətai rayonundakı 88 nömrəli orta məktəbdə tarix müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. 2003-2014-cü illərdə Xətai rayonu 33 saylı seçki dairəsinin 8 saylı məntəqəsinin sədri olmuşdur.

Nazim müəllim 2014-2021-ci illərdə Bakı şəhəri Suraxanı rayonundakı 278 nömrəli orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır.

2019-cu ilin yanvar-fevral aylarında Təhsil Nazirliyinin xətti ilə Britaniya Krallığının Leyster Universitetində xüsusi kurs keçmişdir. O, Azərbaycan müəllimlərinin XIII qurultayının nümayəndəsi, tarix, Azərbaycan tarixi və Həyat bilgisi üzrə fənn kurikulumlarını hazırlayan işçi qrupunun üzvü idi.

Azərbaycan Respublikası Prezidentinin 19 avqust 2008-ci il tarixli sərəncamı ilə "Ən yaxşı 100 müəllim" müsabiqəsinin qalibi olmuşdur. 2014-cü ildə isə "Qabaqcıl təhsil işçisi" fəxri adına layiq görülmüşdür.

Tarixçi, tədqiqatçı, publisist Nizami müəllim həm də söz sənət vurğunudur. Onun Göyçə həsrətli şeirlərini həyəcansız oxumaq mümkün deyil:

*A dostlar, dinləyin, eşidin məni,*
*Baharda çağlıya sellər Göyçədə.*
*Köç geri qayıdıb yerbəyer ola,*
*Toy-büsat başlaya ellər Göyçədə.*

*Məclislər qurula sevinə hamı,*
*Könüllərin cuşa gələ ilhamı,*
*Gözəllər əlində gəzdirə camı,*
*Xınaya boyana əllər Göyçədə.*

*Torpaq cana gələ, verə nəfəsi*
*İnsanın həyata arta həvəsi,*
*Qırqovul, kəkliyin gələndə səsi,*
*Sevinə sonalı göllər Göyçədə.*

*Əkib-becərərlər bağı, bostanı,*
*Aşıqlar başlaya, sevgi dastanı,*
*Sağalda məlhəmi, suyu xəstəni,*
*Min dua oxuya dillər Göyçədə.*

Zəngin biliyi, əla bacarığı, qabiliyyəti, insani ləyaqəti, işgüzarlığı, özünə qarşı həddsiz tələbkarlığı və işinə sonsuz sevgisi, böyük məsuliyyəti ilə Nazim Zeynalov el gözündə pillə-pillə ucalmışdır. Təqaüddə olsa da, yazıb-yaratmaqdan usanmır, bu yaşında qələm əlindən düşmür, bir tarixçi kimi Göyçə ilə bağlı xatirələrini yazır, Göyçə gölünün nəğməli sahillərində gəzdiyi günləri ilhamla qələmə alır...

**Qədir ASLAN,**
**"Respublika".**